# Azərbaycan xalqının müdrik seçimi

> ***Bizim gələcək fəaliyyətimiz üçün milli ideologiyamız əsas rol oynayır. Azərbaycançılıq məfkurəsi Azərbaycanda tam bərqərar olub, Azərbaycan xalqı vahid milli ideya ətrafında birləşib və ölkəmiz çox uğurla inkişaf edir. Azərbaycanda dinlərarası, millətlərarası münasibətlər nümunəvi xarakter daşıyır. Azərbaycanda bütün xalqların, dinlərin nümayəndələri bir ailə kimi mehribanlıq şəraitində yaşayır və bundan sonra da yaşayacaqdır. Bizim siyasətimiz və cəmiyyətin istəkləri bu istiqamətdə atılacaq addımları da şərtləndirəcək.***
>
> ***İlham ƏLİYEV***
> ***Azərbaycan Respublikasının Prezidenti***

***Hər zaman öyündüyümüz mərdlik, sarsılmaz iradə, torpağa bağlılıq kimi irsi keyfiyyətlər zaman-zaman bizi müxtəlif bəlalardan xilas etsə də, bu, həmişə belə olmayıb, əliyalın mərd insanlar silahlı yağılara müqavimət göstərə bilməyib. Biz tarix dərsliklərində, müxtəlif filmlərdə hər zaman belə hadisələri oxumuş, izləmişik. Əlbəttə, yaxın keçmişdə yaşadığımız müsibətlər də istisna deyil.***

Mən və mənim kimi yüz minlərlə gənc gözümüzü torpaqlarının 20 faizi işğal edilmiş ölkədə açmışıq. Əlbəttə, bu, ata-baba yurduna həsrət qalan 1 milyondan çox insanla yanaşı, dövlət üçün də müəyyən iqtisadi çətinliklər yaradırdı. Ulu öndər Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilə özünün tərəqqi dövrünə qədəm qoyan ölkəmiz, iqtisadi problemlərin həlli ilə yanaşı, Vətən, torpaq həsrətini aradan qaldırmağı, ərazi bütövlüyünü təmin etməyi əsas hədəf olaraq seçmişdi. Ümummilli liderimiz bunun o qədər də asan başa gəlməyəcəyini anlayır, iqtisadiyyatın güclənməsinə ən az ordu quruculuğu qədər önəm verirdi. Təəssüflər olsun ki, onun ömrü torpaqlarımızı azad görməyə vəfa etmədi. Ulu öndərdən sonra Prezident seçilən, Azərbaycanın müzəffər lideri İlham Əliyev isə bu missiyanı tamamladı. Öz şəxsi liderlik keyfiyyətləri, yaradılan güclü iqtisadiyyat və ordumuzun şəxsi heyətinin rəşadəti ilə bağrımızdakı daşı söküb atdı, bütün bir xalqı vüsala yetirdi.

Həqiqi liderlər doğru zamanda, düzgün seçilmiş hədəflərə istiqamətlənmiş addımlar atan şəxslərdir. Biz Prezident İlham Əliyevin 44 günlük Vətən müharibəsi zamanı, eləcə də sonrakı dövrlərdəki çıxışlarını dinlədiyimiz zaman zərgər dəqiqliyi ilə ölçülüb-biçilmiş strateji həmlələrini anlaya bilirik. Belə ki, müharibə, sadəcə, "əlinə silah götür, get və torpağı al!" nidası ilə qazanılmır. İkinci Qarabağ müharibəsi həm də uzun illər xalq arasında qarışıqlıq yaratmağa çalışan qüvvələr tərəfindən ortaya atılan fikirləri yerli-dibli məhv etdi. "Biz əsla torpaqlarımızı azad edə bilməyəcəyik, bunun üçün heç bir addım atılmır, danışıqlar sadəcə zaman itkisidir" kimi düşüncələr ilk kəndlərin azad edilməsi ilə sükuta qarışdı. Biz gördük, anladıq ki, həqiqət Prezidentimizin dedikləridir və bu, bizim ən böyük silahımızdır.

Cənab İlham Əliyev Prezidentliyinin ilk günlərindən göstərdi ki, xalq öz seçimində yanılmayıb. Bütün sahələr üzrə həyata keçirilən islahatlar, respublikada start götürən bərpa-quruculuq prosesləri parlaq gələcəyimizin ilk işartıları idi. Bu canlanma xarici dövlətlərin və beynəlxalq təşkilatların da diqqətindən yayınmırdı. Yaxın gələcəyi doğru təhlil etməyi bacaran ekspertlər başa düşürdülər ki, Azərbaycan böyük və qətiyyətli inkişaf yolundadır və heç bir qüvvə bizim qarşımızda dayana bilməz. İllər keçdikcə dünyanın güclü dövlətləri ilə iqtisadi-siyasi əlaqələr yaradan, mövcud əməkdaşlığı gücləndirən Azərbaycan ötən əsrin sonlarında qarşımızdakı ən böyük problemlərdən biri olan blokadadan qurtulmağı bacardı. Belə ki, gün-gündən artan nüfuzumuz, qatıldığımız beynəlxalq təşkilat və layihələr, ölkəmizdə keçirilən dünyamiqyaslı idman yarışları, mədəniyyətimizin və milli-mənəvi kimliyimizin beynəlxalq aləmdə tanınmasına gətirib çıxardı. Ölkəmiz iqtisadi əlaqələrini gücləndirdikcə həm də yeni dostlar, müttəfiqlər qazanır, bununla da dünyaya haqq səsimizi çatdırmaq üçün münasib zəmin yaranırdı.



Əlbəttə, cənab İlham Əliyevin Prezident seçilməsindən sonra ölkəmiz böyük inkişaf yolu qət edib. Azərbaycan bu müddət ərzində dünyanın ən sabit, təhlükəsiz ölkələrindən birinə çevrilib, dünyada və Avropada gedən təhlükəli proseslərdən kənarda qalmağı bacarıb. Ölkəmizdə xarici risklərin aradan qaldırılması ilə yanaşı, daxili risklər də minimuma endirilib. Təbii ki, inkişafın əsas şərtlərindən biri də daxili sabitliyin təmin edilməsidir. Ona görə ki, ölkə ərazisində daxili sabitlik pozulduğu zaman kənar müdaxilələr yaranır və belə olan halda dövlət idarəolunmaz vəziyyətə düşür.

Bu baxımdan, ölkəmizdə xalq-dövlət birliyi uğurun əsas açarlarından biridir. Son 18 il ərzində ölkəmizdə demokratik mühit də sürətlə inkişaf edib. Ölkəmizdə hüquq və azadlıqların qorunmasına imkan yaradılıb. Respublikada söz, mətbuat, sərbəst toplaşma, siyasi fəaliyyət azadlığı təmin edilib. Bütün bunlar Azərbaycan xalqına imkan verir ki, öz taleyini özü təyin etsin. Əlbəttə, seçkilər xalqın iradəsinin göstəricisidir.

Son 18 ildə ölkəmizdə siyasi mübarizə mədəniyyəti formalaşıb. Prezident seçkiləri kampaniyaları bunu bir daha təsdiq edir. Azərbaycan bu dövr ərzində beynəlxalq təşkilatlarla çox fəal əməkdaşlıq etmiş, bu çərçivədə uğurlu layihələrə qatılmışdır. Əvvəldə qeyd olunduğu kimi, bütün bu faktlar təkcə iqtisadi deyil, həm də siyasi müttəfiqlər qazanmağımıza gətirib çıxarmışdır. Təbii ki, belə olan halda həm beynəlxalq təşkilatlar, həm də güclü dövlətlər bizim mövqeyimizi dəstəkləməyə başlamış, Cənubi Qafqazın lideri olaraq bizimlə əməkdaşlığı genişləndirmişlər. Əlbəttə, bu mənada ən mühüm məsələ artıq tarixə qovuşmuş Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı olan fikirlərdir. Belə ki, bizim düzgün, şəffaf siyasi mövqeyimiz bu münaqişənin həlli ilə bağlı haqq səsimizin eşidilməsinə və dünya tərəfindən dəstəklənməsinə gətirib çıxarmışdır. Bu isə, öz növbəsində, Prezident İlham Əliyevin yüksək siyasi iradəsindən, öz tarixini, eləcə də dünya tarixini, ayrı-ayrı ölkələrdə gedən prosesləri mükəmməl şəkildə bilməsindən, yeri gəldikdə bu faktlardan məharətlə istifadə etməsindən qaynaqlanır. Onu demək kifayətdir ki, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar münaqişə ilə bağlı bizim mövqeyimzi dəstəkləmiş və bu barədə önəmli qətnamələr qəbul etmişlər.

Yeri gəlmişkən, qeyd edək ki, 2018-ci il aprelin 11-də cənab İlham Əliyevin növbəti dəfə Azərbaycan Prezidenti seçilməsinədən 4 il ötdü. Bu 4 il ərzində elə əlamətdar hadisələr baş verib ki, saymaqla bitməz. Təbii ki, onlar arasında ən önəmlisi torpaqlarımızın işğaldan azad edilməsidir. Bu gün xalqımız bir daha başa düşür ki, müdrik seçimi edib. Prezident İlham Əliyev təkcə Azərbaycanın deyil, eləcə də bütün dünyanın örnək aldığı, XXI əsr sərkərdəsi kimi tarix dərsliklərinə daxil edilən müzəffər liderdir.

***İmran ƏLİYEV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 19 aprel.- S.3.